

Nigeriyada qeyri-adi aksiya keçirilib. Zamafara əyalətinin paytaxtı Qusauda qadınlar ər tapmamaqdan şikayət ediblər. Xüsusilə dullar ər çatışmazlığından şikayətlənən qadınlar yürüş təşkil ediblər.

Dullar dərnəyinin rəhbəri Suveyba İsa "Anadolu" agentliyinə açıqlamasında 8 min qadının ailə qurmaqda kömək etmələri məqsədilə onlara müraciət etdiyini deyib.Onlara arasında 5380 boşanmış, 2200 dul, 1200 yetim və 80 subay var.

"Qadınlıq qürurum var. Amma bu etirazımızı hökumətə çatdırmağın bir yoludur. Ana ola biləcək bu qədər qadının subay qalması ayıb deyil?".

Mütəxəssislər Nigeriyada həyat şərtlərinin çətinləşdiyini və bunun üçündə kişilərin evlənməkdən qaçdığını, bu vəziyyətin isə öz növbəsində "ər çatışmazlığı"na yol açdığını deyirlər.